# Azərbaycan "Bir kəmər, bir yol"da sabitliyin və sülhün qarantına çevrilir

*Asiyanı Avropa ilə birləşdirmək üçün logistik dəstəkdən və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən danışanda deməliyik ki, bunlar da beynəlxalq gündəliyin mühüm hissəsidir. Azərbaycan öz ərazisində bütün zəruri nəqliyyat layihələrini tamamlayıb və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində bizim Asiya və Avropadakı tərəfdaşlarla mühüm bağlantımız var. Bu önəmli layihənin bir hissəsi olmaq üçün biz öz infrastrukturumuzu, o cümlədən dəniz limanını, Xəzər hövzəsində ən böyük gəmi parkını və dəmir yolu imkanlarını təmin edirik. Beləliklə, biz bu layihəyə maliyyə və siyasi cəhətdən investisiya yatırmışıq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



**Azərbaycan 44 günlük Vətən müharibəsində parlaq qələbə əldə etdikdən sonra Cənubi Qafqazda yeni geosiyasi reallıq yarandı, bölgədə bütün istiqamətlər üzrə inteqrasiya və inkişafın, xüsusən də uzunmüddətli sülh və təhlükəsizliyin əsası qoyuldu. Qarabağda acı məğlubiyyətə uğrayan Ermənistanda isə sağlam düşüncənin olmaması səbəbindən siyasi, sosial-iqtisadi böhran daha da dərinləşdi.**

İkinci Qarabağ müharibəsindən sonra Prezident İlham Əliyev bölgədə nəqliyyat kommunikasiyalarının bərpasının, iqtisadi əlaqələrin yaradılmasının Cənubi Qafqazdakı uzun müddətli sülh və təhlükəsizliyə, o cümlədən inkişaf və inteqrasiyaya töhfə olacağını diqqətə çatdırıb. Bunun üçün Azərbaycan 3+3 formatını təklif edib və ölkəmizin bu təşəbbüsü Ermənistan istisna olmaqla, regionun digər dövlətləri (Gürcüstan, Rusiya, Türkiyə, İran) tərəfindən dəstəklənib.

Vətən müharibəsindən ötən müddət ərzində Ermənistanda azərbaycanofobiya, türkofobiya hökm sürür, revanşizm meyilləri sağlam düşüncəyə və inteqrasiyaya mane olur. Şübhəsiz ki, belə bir mühitdə işğalçı ölkə Azərbaycanın üstünlüyü ilə yaranan geosiyasi reallığı qəbul edə bilmir.

Ermənistan üçün ən təhlükəli hal odur ki, erməni diasporu və erməni havadarları tərəfindən siyasi reallıqdan uzaq siyasət yürüdülməsi bu ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoyub. Bu respublikada növbədənkənar parlament seçkiləri ərəfəsində daxili çəkişmələrin – iqtidarla müxalifət arasında mübarizənin kəskinləşməsi, siyasi möhtəkirlərin bir-birinə qarşı çirkin kampaniyası, əsil həqiqətlərin xalqdan gizlədilərək, cəmiyyətin aldadılması Ermənistanda fəlakətli bir vəziyyət yaradıb. Otuz illik bir dövrdə apardığı işğal siyasəti üzündən bölgədəki bütün regional və beynəlxalq layihələrdən təcrid edilən Ermənistanda indiki şərait milli faciə həddinə çatıb. Bütün bu ağır durumu isə uzun bir dövr ərzində siyasi elitanın yarıtmaz idarəçiliyi, başqa sözlə, Paşinyanla bərabər, əvvəlki iqtidarlar şərtləndirib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən videoformatda keçirilən "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə də bununla bağlı ətraflı danışılıb. Prezident İlham Əliyev çıxışında və suallara cavablarında bir daha vurğulayıb ki, Ermənistan ötən illər ərzində işğalçılıq siyasəti yürütdüyü üçün çox böyük səhvə yol verib və həm özünə, həm də qonşu ölkələrə böyük ziyan vurub, beynəlxalq layihələrdən, energetika və nəqliyyatın inkişafı sahəsində Azərbaycanın təşəbbüslərindən kənarda qalıb. Dövlətimizin başçısı daha sonra deyib: "Onlar Azərbaycanın enerji və daşımaların inkişafı təşəbbüslərindən məhrum oldular. Nəhayət, onlar işğal etdikləri əraziləri itirdilər. O ərazilər ki, onlara nə tarixi nöqteyi-nəzərdən, nə də ki, beynəlxalq hüquq baxımından məxsus deyildi. İndi isə, münaqişə başa çatdıqdan sonra, Dağlıq Qarabağ münaqişəsi, ilk növbədə, Azərbaycan tərəfindən, sonra isə ötən ilin 10 noyabr tarixli birgə Bəyanat ilə artıq həll olunub".

Ötən illər ərzində Ermənistanın yürütdüyü işğalçılıq siyasətinin əksinə olaraq, Azərbaycan düşmən tapdağındakı ərazilərini sülh danışıqları ilə qaytarmağa çalışıb. Eyni zamanda, ölkənin iqtisadi inkişafı istiqamətində önəmli tədbirlər reallaşdırıb, beynəlxalq layihələrin gerçəkləşdirilməsi yolunda uğurlu addımlar atıb. Əlbəttə, bütün bunlar Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılmasını sürətləndirib. Nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirib, əhəmiyyətini artırıb.

Prezident İlham Əliyev müzakirələrdə diqqətə çatdırıb ki, Ermənistanın 30 illik işğalına, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılarına baxmayaraq, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır: "Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq. Biz artıq çox mühüm təkliflərlə və təşəbbüslərlə çıxış etmişik və yeri gəlmişkən, onlar 10 noyabr 2020-ci il tarixli birgə Bəyanatda da əks olunub. Bu, xüsusən də, kommunikasiyaların və yeni daşımalar dəhlizlərinin açılması ilə bağlıdır".

Ölkə rəhbəri, həmçinin bildirib ki, bu layihənin həyata keçirilməsi ilə bağlı iş artıq başlayıb. Azərbaycan bu məqsədlə artıq texniki və maliyyə imkanlarını müəyyənləşdirib. Zəngəzur dəhlizi açıldıqdan sonra isə bütün region ölkələri üçün yeni imkanların gerçəkləşəcəyi əminliyi yaranıb: "Bu səbəbdən, bildirmək istəyirəm ki, Azərbaycan əməkdaşlığa və ümumi gələcəyimizin planlaşdırılmasına açıqdır, çünki biz istəsək də, istəməsək də qonşuyuq və yanaşı yaşamalıyıq və bir daha bu birgə yaşamanı öyrənməliyik. Bu, asan deyil. Burada emosiyalar var. Xüsusən də, Azərbaycan xalqı azad edilmiş torpaqlara səfərlər etdiyi zaman və tam yerlə-yeksan olunan yerləri görəndə, siz yəqin ki, təsəvvür edə bilərsiniz, hansı hissləri keçirirlər...".

Onu da deyək ki, tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasına imkan yaradır.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən videoformatda keçirilən "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı müzakirələrdə bununla bağlı deyib: "Asiyanı Avropa ilə birləşdirmək üçün logistik dəstəkdən və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən danışanda deməliyik ki, bunlar da beynəlxalq gündəliyin mühüm hissəsidir. Azərbaycan öz ərazisində bütün zəruri nəqliyyat layihələrini tamamlayıb və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində bizim Asiya və Avropadakı tərəfdaşlarla mühüm bağlantımız var. Bu önəmli layihənin bir hissəsi olmaq üçün biz öz infrastrukturumuzu, o cümlədən dəniz limanını, Xəzər hövzəsində ən böyük gəmi parkını və dəmir yolu imkanlarını təmin edirik. Beləliklə, biz bu layihəyə maliyyə və siyasi cəhətdən investisiya yatırmışıq. Ümid edirəm ki, bu iki mühüm sahə - enerji təhlükəsizliyi və nəqliyyat təhlükəsizliyi nəinki təkcə Azərbaycanın gələcək iqtisadi inkişafı üçün önəmli rol oynayacaq, - çünki bu, əlavə gəlirlərin yaranmasına səbəb olacaq, - həm də regional sabitliyə ciddi şəkildə töhfə verəcək. Çünki ölkələr bir-birindən asılı olur, ölkələr bir gəmidə olduğu üçün bir komandanın üzvü olur və əlbəttə ki, qarşılıqlı dəstəyin səviyyəsi artacaq".

Yeri gəlmişkən, hazırda dünyanın bir sıra ölkələri tərəfindən Azərbaycanın tranzit imkanları yüksək qiymətləndirilir. Məsələn, Çin və Avropa arasında yükdaşımalarda Şərq-Qərb marşrutundan və onun tərkib hissəsi olan Azərbaycanın nəqliyyat-tranzit potensialından istifadə edilməsi vaxt və maliyyə baxımından daha sərfəli olduğu bildirilir. Ona görə də Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılması ölkəmizin mühüm tranzit uğurlarından sayılır. Bu marşrut 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın yükdaşımalarda iştirak edən müvafiq qurumlarının birgə təşəbbüsü ilə yaradılıb. Daha sonra Ukrayna, Rumıniya və Polşanın da aidiyyəti qurumları Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna qoşulub. Hazırda bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçməklə Avropa ölkələrinə qədər uzanır.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan “Bir kəmər, bir yol”da sabitliyin və sülhün qarantına çevrilir

*(əvvəli 1-ci səhifədə)*

Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan hazırda regionun mühüm nəqliyyat və logistika mərkəzi kimi tanınır. Avropa İttifaqı ölkələri ilə bu sahədə uğurlu əməkdaşlıq həyata keçirilir. Ölkəmizin ərazisindən keçən Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişlidir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycanın Xəzər dənizində ən böyük ticarət donanması, müasir gəmiqayırma zavodu, müasir standartlara cavab verən avtomobil yolları həmin nəqliyyat dəhlizlərinin imkanlarını daha da genişləndirir. Bu imkanlar fonunda tranzit yüklərin həcmi də getdikcə əhəmiyyətli dərəcədə artır.

Azərbaycan rəhbərliyi ölkəmizin coğrafi mövqeyi və yuxarıda qeyd olunan nəqliyyat-tranzit infrastrukturundan səmərəli istifadə etməklə, regionda və dünyada yük daşımalarında mövqeyinin daha da yüksəlməsinə nail olmaq üçün ciddi iş aparır. Təbii ki, bu istiqamətdə dünyanın ikinci iqtisadiyyatına malik olan Çin ilə əlaqələr xüsusi əhəmiyyətə malikdir.

Dünyanın ən böyük ixracatçısı və ən böyük ikinci idxalçı ölkəsi olan Çin özünün xarici ticari-iqtisadi əlaqələrini daha da dərinləşdirməkdən ötrü irəli sürdüyü “Bir kəmər, bir yol” strategiyası Azərbaycan üçün də yeni əməkdaşlıq imkanları yaradır. Azərbaycan Çinin bu yeni təşəbbüsünün əməkdaşlıq, birgə inkişaf üçün yaratdığı imkanları düzgün qiymətləndirən, strategiyanı dəstəkləyən ilk ölkələrdən biri olub.

Prezident İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə səfəri zamanı “Bir kəmər, bir yol” strategiyasının tərkib hissəsi olan “İpək yolu iqtisadi” kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycan rəsmiləri müxtəlif görüşlərdə və beynəlxalq tədbirlərdə ölkəmizin bu təşəbbüsə təkcə siyasi dəstək verməklə kifayətlənmədiyini, həm də onun icrasına özünün iqtisadi potensialı və nəqliyyat-tranzit imkanları ilə əməli töhfə verməyə hazır olduğunu bəyan ediblər.

Onu da vurğulayaq ki, Azərbaycan müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla mühüm nəqliyyat mərkəzinə çevrilməklə bərabər, Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığı genişləndirir. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında münasibətlərin dərinləşdirilməsinə xidmət edir. “Bir kəmər, bir yol” təşəbbüsü də nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 21 may.- S.1;3.